# Bakıda keçirilmiş yürüş tarix boyu yaddaşlarda yaşayacaq

## *Azərbaycanın mövqeyi ilə hamı hesablaşmalıdır və hesablaşacaqdır!*

***Ötən payız ermənilərin növbəti hərbi təxribatına cavab olaraq başladığımız Vətən müharibəsi zamanı minlərlə igid, ərən soydaşımız Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canını fəda etmişdi. Xalqımız və dövlətimiz Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın xatirəsini daim əziz tutur və onları ehtiramla yad edir. Dövlətin şəhid ruhuna ehtiramının növbəti təzahürünü üç gün əvvəl – sentyabrın 27-də gördük. Həmin gün döyüşlərdə həlak olmuş bütün əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edilmişdi.***




> ***Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın... Azərbaycanda yox!***
>
> ***Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətindən***

Teleradio süjetlərində, qəzet məqalələrində, informasiya agentliklərinin xəbərlərində və sosial şəbəkələrdə bu yürüş barədə verilən xəbərlərin hamısı orijinal, müəlliflərin özünə məxsus idi. Yəni bu tədbir elə bir mükəmməlliklə, möhtəşəm şəkildə təşkil edilmişdi ki, dünyadakı əlli milyonluq soydaşlarımızın hansı bu barədə söz açsa, mütləq yeni, sırf özünə aid olan ifadələrdən istifadə edəcək. Elə mən də televiziya ilə həmin tədbiri izləyəndə qəribə bir hiss yaşadım. Bir anlıq elə bildim ki, həmin an Qarabağ müharibəsində şəhid olan övladlarımızın hamısı nizamla addımlayan əsgərlərimizin arasında idi. Bu hissi təkcə meydana bütün şəhidlərimizin fotosunun gətirildiyinə görə yaşamadığımı bilirdim...

Onların hamısı ötən il sentyabrın 27-də sıramızda idi. Həmin gün və sonrakı günlərdə əksəriyyəti könüllü olaraq cəbhəyə yollanan gənclər bilirdilər ki, söhbət müstəqil, qüdrətli Azərbaycan dövlətinin ərazi bütövlüyünün qorunmasından gedir. Həmin gün xalqa müraciət edən dövlət başçımız, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətində də bu məqam xüsusilə qabardılırdı. Müharibənin başlanmasının səbəbləri barədə söz açan Prezident demişdi ki, bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır.

Dövlət başçımızın bir il əvvəlki müraciəti ilə bu il sentyabrın 27-dəki müraciətlərinin hər ikisinin mətninə yenidən nəzər salanda son aylar dönə-dönə eşitdiyimiz "Azərbaycan yeni reallıqlar yaratmışdır" ifadəsinin necə möhtəşəm həqiqət olduğunun şahidinə çevrilirik. Prezident bir il əvvəl demişdi: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!"

Cənab Prezident bu il, məlum yürüşdən əvvəl söylədiyi müraciətində isə başqa məqamlardan söz açırdı: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Yürüşə gəlincə isə qeyd edək ki, şəhid valideynlərindən biri xəbər portalına verdiyi müsahibədə demişdir: " Mən güman edirdim ki, Ali Baş Komandanın və Birinci vitse-prezidentin də iştirak etdiyi yürüşə əlli-altmış şəhidin fotosunu gətirərlər və Allaha yalvarırdım ki, kaş mənim oğlumun fotosu da həmin əlli-altmış fotonun arasında yürüşə gətirilsin. Nəticədə məlum oldu ki, 18 il qabaq "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" – deyən İlham Əliyev, sözün həqiqi mənasında, hər bir şəhid ailəsinin dayağıdır, himayədarıdır, qayğıkeşidir. Allah ona Azərbaycanın yaşı qədər ömür versin ki, həmin yürüşə bütün şəhidlərin ruhunu dəvət etdi. Mən elə bildim ki, oğlumun ruhu yürüşdəki təntənənin şahidi oldu!"

Nəinki şəhid ailələri və onların yaxınları, hətta biz mətbuat təmsilçiləri də dövlət başçımızın və birinci xanımın yürüş zamanı hansı şəhidin portretini götürəcəyi ilə maraqlanırdıq. Çünki dövlət başçımızın çoxsaylı tədbirlərdə və ictimaiyyət təmsilçiləri ilə görüşlərində hamı şahid olub ki, İlham Əliyev şəhidlər, şəhid ailələri, qaçqın və köçkünlərin hamısını məhz birinci şəhid, birinci şəhid ailəsi, birinci köçkün kimi uca tutur, yüksək qiymətləndirir. Ona görə də hansı şəhidin portretinin seçilməsi hamının diqqət mərkəzində idi. Nəticədə hamı həmin seçimdən ən yüksək səviyyədə məmnunluq ifadə etdi.

Mətbuat yazır ki, Ali Baş Komandanın yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı aparması cənab Prezidentə olan ümumxalq məhəbbətini bir daha artırdı. Bildirilir ki, Müdafiə Nazirliyinin hərbi hissəsinin zabiti, baş leytenant Adil İbrahimli 2020-ci il noyabrın 7-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı həlak olub. O, Şuşa istiqamətində aparılmış döyüş əməliyyatlarında xüsusi tapşırıqların yerinə yetirilməsində şəxsi igidlik göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Adil İbrahimlini "Vətən müharibəsi qəhrəmanı" adı, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edib.

Yürüşdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın apardığı şəhid portreti isə təkcə ermənilərin yox, beynəlxalq aləmdəki erməni havadarlarının da üz qaralığı kimi bəlkə də yüz illər boyu unudulmayacaq dəhşətli faktın göstəricisi idi. Həmin plakatda 10 aylıq şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuşdu. Məlumat üçün bildirək ki, 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulmuş, ailənin tək övladı olan Narin 5 illik həsrətin sonunda dünyaya gəlmişdi. Bu mələk simalı günahsız körpə 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak olmuşdu. Sonradan Nazirlər Kabinetinin qərarına əsasən Narin Teymur qızı Xalıqovaya da şəhid statusu verilmişdir. Yürüşdə bu fotonun ən öndə aparılması Azərbaycan Prezidentinin ermənilərin xislətini ifşa etmək üçün yeritdiyi informasiya siyasətinin incə və tutarlı detallarından biri idi.

Bu yürüşün başa çatacağı ünvan da yaxşı seçilmişdi – 8 Noyabr prospekti. Yəni paytaxt sakinləri və şəhərimizin qonaqları Şuşanın düşmən əsarətindən azad edildiyi tarixi hər gün xatırlasınlar deyə, Bakıdakı əsas prospektlərdən birinə bu ad verilmişdir. Neftçilər prospektindən başlayan yürüş həmin gün dövlət başçımız tərəfindən təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam etdi. Üç min nəfərdən çox kursant və hərbi qulluqçunun iştirak etdiyi bu yürüş müasir tariximizin ən əlamətdar günlərindən biri kimi yaddaşlarda qaldı.

Xatırladaq ki, 2907 nəfərin şəhid olduğu, 7 nəfərin itkin düşdüyü 44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi son əsrlərin ən mühüm faktlarından biri idi. Elə ona görə də, müharibədə ölkəmizdə əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan müxtəlif millətlərin və dinlərin təmsilçiləri iştirak edirdilər. Qarabağ müharibəsi Azərbaycan cəmiyyətinin fərqli dini və etnik-milli mənsubiyyətinə baxmayaraq həmrəy olduğunu bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə zəfər sevincini yaşatdı və Azərbaycanın qürur tarixini yazdı.

Həmin günün ən xoş məqamlarından biri isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etmələri idi. Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı.

Nəyi, nə zaman, necə etməyi hamıdan yaxşı bilən Ali Baş Komandanımız verdiyi bütün vədləri kimi bu kompleksin ərsəyə gəlməsi üçün də lazım olan addımları vaxtında atmışdır. Qarşıda isə bizi işğaldan azad edilmiş ərazilərimizin ən müasir şəhərsalma prinsipləri və təcrübəsi əsasında bərpası gözləyir. İnanırıq ki, həmin layihələrin də reallaşdırılmasının şahidinə çevriləcəyik. Özü də tezliklə.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***